*N.İslamova. Hacı Şeyx Həsən Molla İmamqulu oğlu Mollazadə Gəncəvinin həyatı və onun "Zübdətu-təvarix" əsəri // əlyazmalar yanmır, 2023, №1 (16), s. 90-92.*

UOT: 821.411.21

**Nicabət İslamova**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: nicabet.1977@mail.ru*

# HACI ŞEYX HƏSƏN MOLLA İMAMQULU OĞLU MOLLAZADƏ GƏNCƏVİNİN HƏYATI VƏ ONUN "ZÜBDƏTU-TƏVARİX" ƏSƏRİ

**Xülasə**

Azərbaycan Şərq elminə çox qiymətli alimlər bəxş etmişdir. Bu alimlərin yazdıqları əsərlər və bu əsərlərin nüsxələri dünyanın bir çox ölkələrində olan elmi arxivlərdə mühafizə olunur. AMEA Ziya Bünyadov adına Əlyazmalar İnsititutunun arxivində də Şərqin məşhur alimlərinin çox qiymətli əsərləri mühafizə olunur. Belə əsərlərdən biri də Hacı Şeyx Həsən Molla İmamqulu oğlu Gəncəvinin qələmə aldığı əsərlərdir. Müəllifin elmin müxtəlif sahələrinə aid ona qədər əsəri gəlib bizə çatmışdır. Bu əsərlərdən biri də "Zübdətu-təvarix" əsəridir. Əsər dörd cilddən ibarətdir. Kitabda dünyanın yaranmasından başlayaraq müəllifin müasiri olduğu dövrə qədər müxtəlif ölkələrdə baş verən hadisələrdən bəhs olunur. Məqalədə bütün bunlar haqqında maraqlı məlumatlar almaq mümkündür.

***Açar sözlər:*** *tarix, əlyazma, Hacı Şeyx Həsən, axund, Azərbaycan, Şərq*

## Giriş

*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu Azərbaycan tarixinə, mədəniyyətinə, ədəbiyyatına aid əlyazma və çap kitabları ilə zəngindir. İnstitutda həm Azərbaycan, həm də müxtəlif ölkələrin müəlliflərinin əsərləri mühafizə edilir. Sovet dönəmində bu əsərlərin bəzilərini tədqiq etməyə icazə verilməsə də müstəqillik əldə etdikdən sonra bu əsərlər alimlər tərəfindən tədqiqata cəlb edilmiş və orada olan maraqlı faktlar ictimaiyyətə təqdim olumuşdur. Fikrimcə, burada olan Azərbaycan müəlliflərinin əsərlərini tədqiq edərək dünya ictimaiyyətinə çatdırmaq daha vacibdir. XIX əsr Azərbaycan müəlliflərindən biri də Hacı Şeyx Həsən Molla İmamqulu oğlu Gəncəvidir. Hacı Şeyx Həsən Molla İmamqulu oğlu Gəncəvinin təqribən 10 əsəri zəmanəmizə qədər gəlib çatmışdır. Onun qiymətli əsərlərindən biri də "Zübdətu-təvarix" əsəridir.*

## Həyatı

Azərbaycanın görkəmli tədqiqatçılarından bir də Hacı Şeyx Həsən Molla İmamqulu oğlu Mollazadə Gəncəvidir. O, 1853-cü ildə Şəki şəhərində dünyaya gəlmişdir. Hacı Şeyx Həsənin atası ailəsini heyvandarlıq və əkinçiliklə məşğul olaraq dolandırırdı. Şəkinin gözəl təbiəti qoynunda böyüyən Həsən gələcəkdə görkəmli tədqiqatçılardan biri olacaqdı. Lakin hələlik o, bir tərəfdən atasına təsərrüfat işlərində kömək edir, bir tərəfdən isə oxumağa, elm öyrənməyə çalışırdı. Şeyx Həsən ilk təhsilini atasından almışdır. Molla İmamqulu oğlunun elmə olan

həvəsini görür və ona yaxşı təhsil vermək məqsədi ilə ailəsini də götürüb Gəncəyə köçür. Gəncədə təhsilini davam etdirərək ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Bundan sonra o, Nəcəf şəhərinə gedərək burada 5 il qalaraq təhsilini davam etdirmişdir.

**Fəaliyyəti**

Təhsilini tamamladıqdan sonra vətəninə qayıdan alim burada fəaliyyətini davam etdirmişdir. Şeyx Həsən əvvəlcə Naxçıvana gələrək burada ruhani kimi fəaliyyət göstərməyə başladı. Nehrəm kəndindən olan dostunun qızı ilə ailə quran alim bir müddət burada yaşadı. Lakin, həmin vaxtlar Nehrəmdə olan mühit onun elmi potensialını üzə çıxartması üçün əlverişli deyildi. Buna görə də gənc Həsən Gəncəyə yerləşmək qərarına gəldi. Gəncəyə qayıtdıqdan sonra burada ruhani kimi fəaliyyətə başlayan Şeyx Həsən Gəncə müctəhidinin qızı Həbibə xanımla evləndi. İki ildən sonra Naxçıvandakı ailəsini də Gəncəyə gətirən alim ömrünün sonuna qədər burada yaşadı.

Həmin dövrdə Tibilisi şəhəri Cənubi Qafqazın mərkəzi sayılırdı. Qafqazın şeyxulislamı da burada idi. Hacı Şeyx Həsən Tibilisiyə gedərək şeyxulislamın yanında imtahan vermiş və Gəncə şəhərinin axundu vəzifəsinə təyin edilmişdir. Şeyx Həsən axundluq fəaliyyəti ilə yanaşı şəhərdə mədəniyyət və elmlə bağlı təşkil olunmuş tədbirlərdə də yaxından iştirak edirdi. Gəncə quberniyasının yaddaş kitabında onun adının şəhər dumasının üzvləri arasında olması da bunu təstiq edir. Hacı Şeyx Həsən 1919-cu ildə vəfat etmiş və Gəncədəki "Səbzikar" qəbristanlığında dəfn edilmişdir.

**Əsərləri**

Müəllif yazdığı əsərlərdə fərqli mövzulara toxunmuşdur. Tarixi mövzularla yanaşı o həmçinin əqaid, islam məzhəblərindən bəhs edən əsərlər də yazmışdır. Bu əsərlərdən bəziləri haqqında məlumat vermək yerinə düşərdi.

1. "Hidayətul-müslimin va yaxud mizanul-ədyan". Hacı Şeyx Həsən bu əsərdə yahudilik, xristiyanlıq, islam kimi dinlər haqqında məlumatlar vermişdir. Bundan başqa burada həmçinin Babilik-bəhayilik haqqında da maraqlı məlumatlar almaq mümkündür.

2. "Basiratul-İslam-Mufassal əqaidil-İslam va füruuddin". Bu kitab hər bir müsəlmanın istifadə etməsi üçün nəzərdə tutulub. Burada islam dinin müxtəlif əmirləri barədə geniş məlumat verilmişdir. Gənclərin təlim-tərbiyəsində burada olunan məlumatlardan istifadə edilməsi tövsiyyə olunur.

3. "Tarixi ənbiya". Əsərdə peyğəmbər tarixindən bəhs edir.

4. "Tarixi İslam". Müəllif burada həm xilafət dövründə, həm də ondan sonra yaranmış müsəlman dövlətləri haqqında məlumat verir.

Şeyx Həsən zəmanəsinin görkəmli alimlərindən biri olmuşdur. Hərtərəfli biliyə malik olan alimin qələmə aldığı Zübdətu-təvarix əsəri dövrümüzün tarixçiləri tərəfindən dəyərli bir mənbə kimi qiymətləndirilmişdir. Tarixi mövzuda yazılmış bu əsərin əvvəlində müəllif kitabı yazması haqqında belə açıqlama verir. "Bəndeyi-həqiriniz belə məsləhət bildim ki, Zübdətu-təvarix adlı kitabını dörd cilddə yazıb imanlı qardaşlarımıza təqdim edim.

Birinci və ikinci cilddə Hz. Adəmdən başlayaraq Raşidi xəlifələrinin, Əməvilər və Abbasilərin də daxil olduğu dövrü əhatə edən məlumatlar var. Üçüncü və dördüncü cildlərdə isə bu dövrə qədər (yəni müəllifin yaşadığı dövr) yaşamış hökmdarlar, onların qurduqları dövlətlər haqqında məlumat vermişəm."

Birinci cilddə müəllif əvvəlcə tarix və onun əhatə etdiyi mövzülar haqqında məlumat verir. Bundan sonra dünyanın yaradılışından bəhs edir. Daha sonra isə Hz. Adəmdən başlayaraq bütün peyğəmbərləri tək-tək tədqiq etməyə başlayır. Hər bir peyğəmbərin dünyaya gəlişindən vəfatına qədər keçdiyi yolu ən kiçik xırdalığına qədər qeyd edir. Zübdətu təvarix əsərinin IV cildində müəllif Azərbaycan, xüsusən də burada yaranmış dövlətlər haqqında məlumat vermişdir. Bu cilddə Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri, həmçinin burada baş vermiş hadisələr

haqqında da məlumatlar vermişdir. Əsərdə Teymurun Azərbaycana yürüşü ilə bağlı da dəyərli məlumatlar almaq mümkündür. Əsərin birinci cildi 1905-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. İkinci cildi Gəncədə Əskər Hacı Həsənzadə mətbəəsində1909-cu ildə, üçüncü cildin birinci hissəsi 1913-cü ildə Gəncədə Əbilov və Hakverdiyev mətbəəsində çap edilmişdir. Əsərin dördüncü cildi iki hissədən ibarət olmaqla 1912-ci ildə Gəncədə Əbilov və Hakverdiyev mətbəəsində nəşr edilmişdir.

**Nəticə**

*Azərbaycanlı alimlər içərisində Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin özünəməxsus yeri vardır. Alim 10-a yaxın əsərə müəlliflik etmişdir. Şeyx Həsən dinlər tarixi, əqaid, məzhəblər tarixi, islam tarixi, Şərq tarixi və sairə kimi mövzularda maraqlı kitablar yazmışdır. Yazdığı əsərlərdə əhatə etdiyi mövzular onun hərtərəfli biliyə malik olduğunu göstərir. Məqalədə Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin həyatı və "Zübdətu təvarix" əsəri haqqında məlumatlar verilmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, Şeyx Həsənin əsərləri indiyə qədər lazımınca araşdırılmamış və tədqiqata cəlb edilməmişdir. Halbuki əgər onun yazdığı əsərlər tədqiq olunarsa həm Azərbaycan tarixi, həm də islam dini ilə bağlı maraqlı və qiymətli faktlar ortaya çıxar. Bu səbəbdən də alimin həm bəhs olunan "Zübdətu-təvarix" əsərinin, həm də digər əsərlərinin transliterasiya edilərək Azərbaycan elmi ictimaiyyətinə çatdırılması çox zəruridir.*

**Ədəbiyyat siyahısı:**

1. Hacı Şeyx Həsən Mollazadə Gəncəvi. "Zübdətu-təvarix" I cild,
2. Hacı Şeyx Həsən Mollazadə Gəncəvi. "Zübdətu-təvarix" II cild
3. Hacı Şeyx Həsən Mollazadə Gəncəvi. "Zübdətu-təvarix" III cild
4. Hacı Şeyx Həsən Mollazadə Gəncəvi. "Zübdətu-təvarix" IV cild
5. Qasımov Elçin. "Klassik Azərbaycan Tarixçisi Hacı Şeyx Həsən
6. "Mollazadə Gəncəvi", Bakı Dövlət Universiteti İlahiyyat Fakultəsinin Elmi Məcmuəsi, 21 (2014): 184-185
7. Şahin Əhmədoğlu. "Azərbaycanlı alim Hacı Şeyx Həsən Mollazadə Gəncəvinin həyatı, əsərləri və görüşləri."

**Nijabat Islamova**

**The life of Haji Sheikh Hassan Mullah Imamgulu oglu Mullahzadeh Ganjavi and his work entitled "Zubdetul-tavarih"**

Azerbaijan has presented many valuable scientists to Eastern science. The works written by these scientists and the manuscripts of these works are kept in scientific archives of many countries of the world. In the archive of the Institute of Manuscripts named after Zii Buneev ANAS also holds very valuable works of famous scientists The East. Dozens of the author's works relating to various branches of science have reached us. One of them is "Zubdatu-tavarih". The work consists of four volumes. The book tells about the events that took place in different countries, starting with the creation of the world and ending with the era when the author was a contemporary. You can get interesting information about all this in the article.

***Keywords:*** *history, Zubdatu-tavarih, Haji Sheikh Hassan, akhund, Azerbaijan, East*

Filologiya üzrə elmlər doktoru, professor
**Kamandar Şərifov** tərəfindən çapa tövsiyə olunmuşdur.